# İNŞAATÇI KADRLAR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qəzeti

The newspaper of Azerbaijan University of Architecture & Construction

№2(467) 29 fevral 2024-cü il www.azmiu.edu.az




## Qalib xalq qalib liderini seçdi!

**Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindən biri kimi yaddaşlara həkk olundu. Bu, suverenliyimizin tam bərpa olunduğu şəraitdə, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun daxil olduğu bütün ölkə ərazisində reallaşan ilk seçki idi.**

**Son 30 ildə ilk dəfə olaraq Xankəndidə, Şuşada, Laçında, Cəbrayılda, Füzulidə, Ağdamda, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda, Xocalıda, Xocavənddə, Suqovuşanda seçki məntəqələri yaradılmışdır.**

**Seçki gününün ən önəmli hadisələrindən biri də ölkə başçımız İlham Əliyevin ailə üzvləri ilə birlikdə Xankəndidə səs verməsi oldu. O, Xankəndidə səs verməklə yeni bir tarix yazdı. Bu seçkilərə qədər kimin ağlına gələrdi ki, Xankəndidə, Xocalı və Xocavənddə Azərbaycan bayrağı dalğalanacaq, seçkilər keçiriləcək və Prezidentimiz öz səsini Xankəndidə verəcəkdir.**

**Fevralın 7-də səsvermədə iştirak edən hər bir seçiciyə normal şərait yaradıldı. Səhhətində problem olan bəzi seçicilərin məntəqələrə gəlməsi də təmin olundu. Bir sözlə, səsvermənin azad, demokratik şəraitdə keçirilməsi hamının ürəyincə oldu.**

**İnsanlar öz qəlblərinin səsinə qulaq asaraq ən layiqli namizədə – Azərbaycanın bütövlüyü və suverenliyini tam bərpa edən, xalqımıza qələbə sevinci yaşadan, hər zaman vətəndaşlarının yanında olan İlham Heydər oğlu Əliyevə səs verdilər. Beləliklə, qalib xalq qalib liderini 92.12 faiz səslə yenidən Prezident seçdi.**

**Azad, şəffaf və demokratik şəraitdə keçirilən Prezident seçkiləri Azərbaycan tarixinin Zəfər seçkisi olaraq yaddaşlarda qalacaqdır.**

### 2 Fevral Gənclər günüdür

## AzMİU-da təhsildə və ictimai fəaliyyətdə fərqlənən tələbələrlə görüş keçirilib

2 Fevral – Gənclər Günü münasibətilə Azərbaycan Memarlıq və İnşaat Universitetində təhsildə və ictimai fəaliyyətdə fərqlənən tələbə-gənclərlə görüş keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib və Vətən müharibəsində canını fəda edən Şəhidlərimizin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Şahmar Rəfili çıxış edərək Gənclər Günü barədə ətraflı məlumat verib. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətindən və bu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsindən danışıb. Şahmar Rəfili bildirib ki, qazandığımız qələbələr və ölkəmizdə həyata keçirilən islahatlar sayəsində bugünkü gənclik dövlətimizin ən parlaq zamanına şahidlik edir.



Təşkilat sədri çıxışında qeyd edib ki, ölkəmizin dayanıqlı gənclər siyasəti AzMİU-da uğurla həyata keçirilir.

Universitetin rektoru professor Gülçöhrə Məmmədova Gənclər günü münasibətilə tələbələri təbrik edib, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Rektor tələbə-gənclərə vətənpərvər və milli ruhda fəaliyyət göstərməyi, mənəvi baxımdan sağlam, intellektli, savadlı gənclik olmalarını, bilik və bacarıqlarını ölkəmizin inkişafı naminə səfərbər etmələrini, üzərlərinə düşən vəzifələrini vicdanla, məsuliyyətlə icra etməyi tövsiyə edib.

Gülçöhrə Məmmədova çıxışında qeyd edib ki, bu gün gənclərimiz ölkənin inkişafında fəal rol oynayırlar: "Onların uğurlu fəaliyyətini bütün sahələrdə görmək mümkündür. Azərbaycanın vahid gənclər siyasəti ölkəmizin bütün strukturlarında olduğu kimi Azərbaycan Memarlıq və İnşaat Universitetində də uğurla davam etdirilir. Ali təhsil ocağı yarandığı gündən kollektivi və məzunları ilə ölkəmizin həyatında misilsiz xidmətlər göstərir. Dövlətçiliyin daha da möhkəmləndirilməsinə, inkişafımızı təcəssüm etdirən tikinti-quruculuq işlərinə önəmli töhfələr verir. Bu köklü ali təhsil müəssisəsi Ulu Öndər Heydər Əliyev prinsipinə sadiq qalaraq vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksəkixtisaslı mütəxəssis-gənclər yetişdirir".

Rektor 44 günlük Vətən müharibəsində ölkəmizə parlaq qələbə sevincini yaşadan, canı və qanı bahasına ən yeni tarix yazan, əzəli torpaqlarımızı işğaldan azad edən qəhrəman gənclərimizi də unutmayıb. Vətən müharibəsində gənclərin yüksək iradə, əzm, milli ruh və vətənpərvərlik nümayiş etdirdiyini diqqətə çatdırıb.

Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Orxan Naqdiyev çıxış edərək bildirib ki, bu görüşdə universitetin xüsusi nailiyyətləri ilə seçilən tələbə-gənclər də iştirak edirlər. Bu gənclər öz müsbət fəaliyyətləri ilə özlərini təsdiqləyib, təhsildə, ictimai həyatda, idmanda seçilməyi bacarıblar.

Universitetin Tələbə Gənclər Təşkilatının sədri Tacir İsmayılzadə ölkə rəhbərliyi tərəfindən mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasətinin gənc nəslin ictimai-siyasi həyatdakı rolundan danışıb. Bu qayğının nəticəsi olaraq bildirib ki, gənclər ölkənin aparıcı qüvvəsinə çevrilib, öz üzərində işləyən, özünü inkişaf etdirən, dövlət siyasətinə layiq gənclik formalaşıb.

AzMİU–İTU inşaat ixtisası üzrə ikili diplom proqramının ilk məzunu Asiman Əlizadə və tədbirdə iştirak edən digər tələbə-gənclərin də çıxışları dinlənilib.

Onlar ölkədə baş verən proseslərdən, gənclərə qayğıdan danışıb, AzMİU rəhbərliyinin onlara yaratdığı şəraitdən, sağlam mühitdən razılıq ediblər.

Sonda əlamətdar tarixi gün münasibətilə ictimai və təhsil həyatında, idmanda fərqlənən tələbələrin təltif olunma mərasimi keçirilib.

Universitet rəhbərliyi tərəfindən "Heydər Əliyev adına təqaüd"ə layiq görülən AzMİU-nun 2 tələbəsinə diplomlar, digər tələbələrə isə təşəkkürnamələr təqdim olunub.

**Nicat Abdullayev.**

## Tələbəmizin layihəsi "Mariya Skladovskaya-Küri" təqaüd və qrant proqramının qalibi olub



Azərbaycan Memarlıq və İnşaat Universitetinin Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin ekologiya mühəndisliyi ixtisaslaşması üzrə magistrantı Hüsniyyə Necati elm sahəsində Avropanın ən qabaqcıl proqramlarından biri olan "Mariya Skladovskaya-Küri" təqaüd və qrant proqramını qazanıb. Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) tərəfindən maliyyələşdiriləcək qrant Hüsniyyə Necatinin "Abşeronda neft və qazla çirklənmiş ərazilərin təmizlənməsi" layihəsinə ayrılıb.

AzMİU-nun Ekologiya kafedrasının baş müəllimi Fərhad Əliyevin elmi rəhbərliyi ilə hazırlanan layihədə Abşeron yarımadasının neft və qazla çirklənmiş ərazilərinin təmizlənərək ekoloji tarazlığının təmin olunması nəzərdə tutulub.

"Mariya Skladovskaya-Küri" təqaüd və qrant proqramı Hüsniyyə Necatiyə bir il müddətində Avropanın, xüsusilə Almaniyanın mövzu ilə əlaqədar ən qabaqcıl universitet və elmi-tədqiqat institutlarında təcrübələr aparmağa imkan verəcək.

Məlumat üçün bildirək ki, əslən Cənubi Azərbaycandan olan tələbə Hüsniyyə Necati Azərbaycan MEA-nın Radiasiya Problemləri İnstitutunda çalışır.

Qeyd edək ki, "Mariya Skladovskaya-Küri" proqramı Avropa İttifaqı ölkələri tərəfindən maliyyələşdirilən və tədqiqatçıların Avropada təlim, mobillik və karyera inkişafını təmin edən proqramdır. Bu proqram radioaktivlik sahəsində əldə etdiyi uğurlarla şöhrət qazanan, ilk və iki dəfə Nobel mükafatı laureatına layiq görülmüş kimyaçı-fizik Mariya Skladovskaya-Kürinin adı ilə adlandırılmışdır.

Mariya Küri magistrant və doktorantlar üçün əsas proqramlardan biri olub, təqribən 25000 magistrant və doktorantı maliyyələşdirən və karyerasının hər hansı bir mərhələsində olan alimlər üçün qrantlar təqdim edən proqramdır. Alimlər bu proqram vasitəsilə xarici ölkədə təcrübə qazanır, təlim və karyeralarında daha böyük irəliləyiş imkanı əldə edirlər.

Proqramı qazanan şəxsin xaricdəki yaşayış xərcləri, o cümlədən mübadilə proqramı çərçivəsində təhsil alması üçün universitet xərcləri bu proqram tərəfindən maliyyələşdirilir. Təqaüdün məbləği müraciət edilən universitetdən və fəaliyyət növündən asılı olaraq dəyişir.

**PR və Media.**

## Xocalı soyqırımı insanlıq əleyhinə törədilən ən ağır cinayətdir



Azərbaycan Memarlıq və İnşaat Universitetində Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

Universitetin professor-müəllim heyəti və tələbələrinin iştirak etdiyi tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Vətən uğrunda canını fəda edən şəhidlərimizin, eləcə də Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən rektor professor Gülçöhrə Məmmədova Xocalı soyqırımının insanlığın tarixində ən qəddar və amansız terror hadisələrindən biri, 200 ildən artıq müddətdə erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsi olduğunu deyib.

Rektor qeyd edib ki, erməni quldur birləşmələri keçmiş sovet ordusuna məxsus 366-cı alayın əsgər və zabitləri ilə birlikdə Xocalı şəhərini yerlə-yeksan edib, dinc əhalini, xüsusilə uşaqları, qadınları, qocaları ağlasığmaz vəhşiliklə öldürüblər. Professor Gülçöhrə Məmmədova o zamanlar Xocalı soyqırımına lazımi hüquqi qiymətin verilmədiyini, yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra Azərbaycan hökuməti və parlamentinin Xocalı soyqırımı, bütövlükdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətləri dünya dövlətlərinə, parlamentlərinə və beynəlxalq təşkilatlara çatdırdığını bildirib.

Ulu Öndərin yürütdüyü həmin siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd edən rektor əlavə edib ki, dünyanın bir çox ölkələrində Heydər Əliyev Fondunun, Fondun müxtəlif ölkələrdəki nümayəndəliklərinin, diaspor təşkilatlarının təşəbbüsü ilə tədbirlər keçirilir, Xocalı faciəsi soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanınır.

"Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və müzəffər ordumuzun əzmi sayəsində qələbə qazandığımız 44 günlük Vətən Müharibəsində bəşəriyyət və insanlıq adına utancverici fakt olan Xocalı soyqırımı qurbanlarının qisası döyüş meydanında alındı", deyə rektor qeyd edib.

Milli Məclisin deputatı Naqif Həmzəyev çıxış edərək Xocalı faciəsinin tarixi aspektlərinə toxunub. Deputat Xocalı faciəsinin səbəb və nəticələrindən söz açıb, bu faciənin Azərbaycan xalqına qarşı erməni millətçilərinin illərlə həyata keçirdikləri etnik təmizləmə, soyqırım aktlarının davamı olduğunu vurğulayıb. Xocalı soyqırımını dinc azərbaycanlı əhalisinə qarşı törədilmiş ən ağır cinayət olduğunu diqqətə çatdırıb.

Sonda Xocalı soyqırımına həsr olunmuş film nümayiş etdirilib.

***

Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar AzMİU-nun bir qrup müəllim və tələbəsi Bakının Xətai rayonunda ucaldılmış "Ana harayı" abidəsini ziyarət ediblər.

AzMİU kollektivi abidənin önünə gül dəstələri düzərək, faciə qurbanlarının xatirəsini ehtiramla anıblar.

**"İnşaatçı kadrlar".**

## Elmi Şuranın iclasında rektor prioritet istiqamətləri açıqlayıb



Fevralın 28-də Azərbaycan Memarlıq və İnşaat Universiteti Elmi Şurasının iclası keçirilib.

Elmi Şuranın iclasında əvvəlcə AzMİU-nun Landşaft memarlığı kafedrasının müdiri, professor Aybəniz Həsənovanın 80 illik yubileyi qeyd olunub. Elmi Şuranın sədri professor Gülçöhrə Məmmədova Aybəniz Həsənovanın həyat və fəaliyyətindən söhbət açıb, landşaft memarlığı sahəsində gördüyü işləri şura üzvlərinin nəzərinə çatdırıb. Rektor Aybəniz Həsənovanı müəllim adının şərəfini həmişə uca tutan, tələbələrinin uğurlarına sevinən pedaqoq, ziyalı alim, xeyirxah insan kimi dəyərləndirib. Çıxışının sonunda Aybəniz Həsənovanı 80 illik yubileyi münasibətilə təbrik edib, ona cansağlığı, gələcək işlərində uğurlar arzulayıb. Şura üzvləri də təbriklərə qoşulub, kafedra müdiri barədə müsbət fikirlər səsləndiriblər.

Aybəniz Həsənova onun barəsində deyilən xoş və səmimi sözlərə görə Elmi Şuranın sədrinə və üzvlərinə öz dərin minnətdarlığını bildirib.

Sonra iclasın gündəliyinə keçilib. Gündəlikdə duran məsələlər şura üzvlərinin diqqətinə çatdırılıb.

Gündəliyin ilk məruzəsi AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədovanın "Rektorluğun 2023-cü il üzrə fəaliyyəti barədə" hesabatı olub. Rektor çıxışında 2022-ci ildə əldə olunan uğurlar, nailiyyətlər və çatışmazlıqlarla bağlı ətraflı məlumat verib. Tədrisin keyfiyyətinin daha da yüksəldilməsi, elmi potensialın gücləndirilməsi, universitetin beynəlxalq reytinqlərdəki mövqelərinin irəli pillələrə daşınması, xüsusilə AzMİU alimlərinin inpakt faktorlu jurnallardakı məqalə saylarının artırılması, həmçinin gənc nəslin milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda yetişdirilməsi prioritet istiqamətlər olaraq elan edilib.

Sonra AzMİU-nun baş mühasibi Sarı Yusubovun "Universitetin 2023-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə" hesabatı dinlənilib.

Çıxışlardan sonra məruzəçilər tərəfindən Elmi Şura üzvlərinin sualları cavablandırılıb və məruzələr üzrə təkliflər dinlənilib.

Sonda müsabiqə işlərinə baxılıb.

## AzMİU-da 2024-cü il üzrə diferensial əməkhaqqı sisteminin nəticələri açıqlanıb

Azərbaycan Memarlıq və İnşaat Universitetində 2024-cü il üzrə diferensial əməkhaqqı sisteminin nəticələri açıqlanıb.

Universitetin Strateji planlaşdırma şöbəsi Keyfiyyət təminatı və monitorinq mərkəzi ilə birgə müəllimlərin obyektiv və şəffaf meyarlar əsasında qiymətləndirilməsini həyata keçirib. Qiymətləndirmə iki kateqoriya (A və B) üzrə aparılıb. Pedaqoji heyətin xidməti fəaliyyəti komissiya tərəfindən elm və tədris istiqamətləri üzrə qiymətləndirilib.

Daxili qiymətləndirməyə bu il 37 müəllim qoşulub. Onlardan 26 müəllim qalib olub. A kateqoriyası üzrə qiymətləndirilən müəllimlərin əməkhaqqına 300 manat, B kateqoriyası üzrə qiymətləndirilən müəllimlərin əməkhaqlarına isə 200 manat əlavə olunub.

Ötən illə müqayisədə diferensial əməkhaqqı sisteminə akademik heyətin müraciəti bu il daha yüksək olub.

Məlumat üçün qeyd edək ki, sistemin tətbiqində əsas məqsəd akademik heyətin əməkhaqlarını diferensiallaşdırmaqla onların elmi-pedaqoji fəaliyyətini universitetin inkişaf hədəfləri istiqamətində stimullaşdırmaqdır.

**Günel Həsənova.**

# Aybəniz xanım ömrünün 50 ilini elm və təhsilə həsr etmiş memar alimdir

Zəriflik və gözəllik rəmzi sayılan qadınlarımızın adı həmişə respublikamızda uca tutulub. Onlar bütün işlərimizdə öz istedad və bacarıqları ilə kişilərdən geridə qalmayıblar.

Bu gün universitetimizin fakültə, kafedra və şöbələrində xeyli sayda qadın çalışır. Onlar hansı işin qulpundan yapışıblarsa, o işi qabiliyyətlə yerinə yetirib, ümumi işimizə çox böyük köməklik göstəriblər.

Qəzetimizin bugünkü sayında belə xanımlardan biri – universitetimizin Landşaft memarlığı kafedrasının müdiri, memarlıq doktoru, professor Aybəniz Həsənova haqqında söhbət açacağıq.

Əvvəla, qısa təqdimat üçün onu qeyd edək ki, Aybəniz xanım həyatını elmə, təhsilə, gənc nəslin təlim və tərbiyəsi kimi nəcib işə həsr etmiş qadınlarımızdandır. Elə isə gəlin, belə bir ömür sahibinin həyat yoluna qısaca da olsa nəzər salaq.



Aybəniz Həsənova 1944-cü il fevralın 10-da Bakıda anadan olub. 1967-ci ildə indiki Azərbaycan Texniki Universitetinin memarlıq ixtisasını bitirib. 1967–1975-ci illərdə “Azdövlətlayihə” İnstitutunda baş memar vəzifəsində çalışıb. 1975-ci ildən universitetimizdə assistent kimi işə başlayıb. 1984-cü ildə namizədlik dissertasiyasını, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə edib.

1990-cı ildə Aybəniz xanımın təşəbbüsü ilə universitetimizdə Landşaft memarlığı kafedrası yaradılıb. Bu kafedranın həm gənc memar tələbələrimizə bu fənnin öyrədilməsində, həm də ölkəmizin memarlıq landşaftının inkişafında böyük rolu vardır.

Aybəniz Həsənova 3 monoqrafiyanın, 70-dən çox elmi əsərin və bir çox iri həcmli layihələrin müəllifidir.

1995-ci ildə o, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü seçilib. 2013-cü ildə isə ona “Əməkdar memar” fəxri adı verilib.

Aybəniz xanımın bu yaxın günlərdə 80 yaşı tamam olub. Qəzetimizin çoxminli oxucuları adından Aybəniz xanımı həm 80 illik yubileyi, həm də qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirik! Ona cansağlığı, uzun ömür, xoş günlər arzulayırıq!

**Akif Hacıyev.**

# Tələbələrin təcrübə keçməsi üçün AzMİU 200-ə yaxın müəssisə ilə əməkdaşlıq edir

Azərbaycan Memarlıq və İnşaat Universiteti tələbələrin təcrübə keçməsi üçün 200-ə yaxın müəssisə və təşkilatla əməkdaşlıq edir. Bu qurumlardan 29-u 2023/2024-cü tədris ilində əməkdaşlığa cəlb edilib.

2023/2024-cü tədris ilində bu qurumlara bakalavriat səviyyəsi üzrə 1451, magistratura səviyyəsi üzrə isə 441 olmaqla, ümumilikdə 1892 tələbə göndərilib. Bunlardan 568 tələbə təcrübəyə öz müraciəti əsasında seçdiyi müəssisəyə göndərilib.

Qeyd edək ki, tələbələrin təcrübə keçmək üçün müəssisə seçmək hüququ var, lakin həmin müəssisə təcrübə üçün tələb edilən elmi, texnoloji və idarəetmə şərtlərini ödəməlidir.

**Qənirə Əhmədova.**

# Ölkə bazarında alternativi olmayan “N’us Gallery” layihəsi “Startap” şəhadətnaməsi aldı




Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi, fərdi sahibkar Nigar Novruzzadənin “N’us Gallery” layihəsi Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) “Startap” şəhadətnaməsi alıb.

Memarlıq fakültəsinin IV kurs tələbəsi Nigar Novruzzadə Azərbaycanda ilk dəfə olaraq incəsənət əsərlərinin satışı üçün onlayn platforma yaradıb. Onun yaratdığı N’us Gallery (https://nus.gallery/) ölkə bazarında alternativi olmayan innovativ incəsənət platformasıdır. Platforma rəssamları, dizaynerləri, eləcə də incəsənətlə məşğul olan insanları bir çətir altında toplamağı hədəfləyir. Təcrübəli, eləcə də gənc rəssamlar, dizaynerlər və sənətlə məşğul olan insanlar platforma vasitəsilə öz işlərini satışa çıxara bilərlər. Hazırda platforma 500-dən çox rəssamla əməkdaşlıq edir. İndiyədək platformaya 30-dan çox əsər yerləşdirilib. Burada yerləşdirilən əsərlərin qiymətləri 50 – 20.000 manat arasında dəyişir. Hələlik isə platforma vasitəsilə satılan ən bahalı əsərin qiyməti 500 manat olub.

“N’us Gallery” Azərbaycan startap ekosisteminin nümunəsi kimi Rusiyada elektron qaydada keçirilən yarışmada 120 startap arasında “Orijinal ideya” nominasiyasına layiq görülüb. Layihə, eyni zamanda, Azərbaycanda 40 startap üzərində aparılan test mərhələsindən uğurla keçərək, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) proqramının iştirakçısı olub.

**Təbrik edirik!**

# Nurməmməd Məmmədov “AzMİU-nun Fəxri professoru” adına layiq görülüb

**AzMİU Elmi Şurasının yanvarın 31-də keçirilən iclasında universitetimizin Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının dosenti Nurməmməd Yaşar oğlu Məmmədova “AzMİU-nun Fəxri professoru” adı verilmişdir.**

Nurməmməd Məmmədov 1977-ci ilin sentyabrından universitetimizdə çalışır. O, həmişə, hər yerdə müəllim adının, alim adının ləyaqətini gözləyən, elmin şərəfini uca tutan, tələbələrinin uğuruna sevinən ziyalılarımızdandır. Kollektivimizdə hamı onu təcrübəli pedaqoq, gözəl mənəviyyat timsalı olan müəllim kimi tanıyır.

Hörmətli Nurməmməd müəllim! Sizi “AzMİU-nun Fəxri professoru” adına layiq görülməyiniz münasibətilə qəzetimizin oxucuları adından səmimi-qəlbdən təbrik edir, sizə cansağlığı, uzun ömür, gənc nəslin təlim və tərbiyəsi kimi şərəfli işinizdə uğurlar arzulayırıq!



# Akademik heyət üçün “Müasir təlim metodikaları” mövzusunda seminar



Azərbaycan Memarlıq və İnşaat Universitetinin Keyfiyyət Təminatı və Monitorinq Mərkəzi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlim-Tədris Mərkəzi ilə birgə “Müasir təlim metodikaları” mövzusunda seminar keçirib.

AzMİU-nun professor-müəllim heyəti üçün nəzərdə tutulan seminarın əsas məqsədi fəal-interaktiv təlim metodlarının akademik heyət tərəfindən mənimsənilməsinə şərait yaratmaq, keyfiyyətli təlim-tədris prosesinin təşkili işinə dəstək göstərməkdir.

Seminarı AzMİU-nun Tədris işləri üzrə prorektoru professor Akif Qasımov açaraq güclü rəqabət mühitində bazar iqtisadiyyatının tələblərinə uyğun savadlı, bacarıqlı kadrların yetişdirilməsində müəllimlərin məsuliyyətli və vacib rolundan danışıb. Prorektor qeyd edib ki, bütün sahələr kimi təhsil sahəsində də mütərəqqi metodların tətbiq olunması bu sahədə keyfiyyətin yüksəldilməsi və səmərəliliyin artırılmasına güclü təsir edir. Təhsil sistemində aparılan islahatlar müasir dərsin məzmununun təkmilləşdirilməsi, yeni təlim texnologiyalarının tətbiqini tələb edir. İnteraktiv təlim metodlarından istifadə təhsilin keyfiyyətinə öz müsbət təsirini göstərir. Müəllimlərin öz üzərində çalışmaq, bilik və təcrübələrini gənclərlə paylaşmaq kimi məsələləri ön plana çıxarır.

Prorektorun çıxışından sonra seminarda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlim-Tədris Mərkəzinin direktoru Xalidə Həmidova və Mərkəzin əməkdaşı Rumiyyə Camalova məruzə ilə çıxış ediblər. Yeni tədris metodikaları, onların müxtəlif ixtisasların mühazirə və məşğələ dərslərində tətbiq olunması istiqamətləri barədə geniş məlumat veriblər.

AzMİU-nun müəllimləri də seminarda müzakirə olunan mövzular ətrafında çıxış edərək öz bilik və bacarıqlarını bölüşüblər.

Seminar universitetin professor-müəllim heyəti ilə təlim keçənlər arasında elmi-pedaqoji fikir mübadiləsi ilə başa çatıb.

**“İnşaatçı kadrlar”.**

# Müəllimlərimiz tərəfindən yeni dərslik hazırlanıb




Azərbaycan Memarlıq və İnşaat Universitetinin müəllimləri tərəfindən ali məktəblər üçün “Dəmiryol nəqliyyatının hərəkət vasitələri” adlı yeni dərslik nəşr olunub.

Nəqliyyat və logistika kafedrasının müəllimləri – İsrail Eyvazov, Bulud Bağırov, İlham Hüseynov, Afiq Nəzərov, Ramin Abdullayevin həmmüəllifliyi ilə hazırlanan dərslikdə dəmiryol nəqliyyatının əsas xarakterik xüsusiyyətləri araşdırılıb, vahid nəqliyyat sistemində Azərbaycan dəmir yol nəqliyyatının tarixi rolu və əhəmiyyəti göstərilib. Kitabda dəmir yolu nəqliyyatının hərəkət vasitələrinin təyinatı, təsnifatı və konstruktiv özəllikləri haqqında ətraflı məlumat da yer alıb. Yük və sərnişin vaqonlarının əsas hissələri, onların konstruksiyası, vaqonların qabariti, texniki göstəricilərinin təyini, şəhər nəqliyyatında istismar olunan vaqonların konstruktiv xüsusiyyətləri, tətbiq olunan müasir texnologiyalar haqqında materiallar metodiki ardıcıllıqla əks olunub.

Dərslik ali məktəblərin “Nəqliyyat mühəndisliyi” və “Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi” ixtisasları üzrə bakalavriat səviyyəsində təhsil alan tələbələri üçün nəzərdə tutulub. Kitabdan, həmçinin dəmir yol nəqliyyatının istehsalat sahələri və müəssisələrində çalışan mütəxəssislər, eləcə də nəqliyyat ixtisaslaşmaları üzrə təhsil olan magistrantlar istifadə edə bilərlər.

**Etibar Quliyev.**

# AzMİU TGT "İlin Tələbə Gənclər Təşkilatı" seçildi

Fevralın 1-də Azərbaycan Gənclər Fondunun dəstəyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə Bakı Gənclər Mərkəzində 2 Fevral – Gənclər gününə həsr olunmuş "Tələbə Gənclər Təşkilatlarının Respublika Forumu – 2024" keçirilib.

Forumun əsas məqsədi TGT-lərin fəaliyyətinin səmərəliliyi, gələcək perspektivdə inkişaf strategiyasının müəyyən olunması və düzgün planlama aparılmasına dəstək olmaqdır. Forum çərçivəsində İttifaq tərəfindən yenilənmiş loqoya keçən TGT-lərin elan olunması, TGT-lərin yenilənmiş əsasnaməsinin təqdimatı, müxtəlif panel görüşlər, seminar və vörkşoplar təşkil olunub.




Forumda Elm və Təhsil nazirinin müşaviri Nicat Məmmədli, Azərbaycan Gənclər fondunun icraçı direktor müavini Orxan Ərəbov, AzMİU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Orxan Naqdiyev və universitetin digər prorektorları "Tələbə Gənclər Təşkilatlarının Təhsil müəssisəsi daxili adminstrativ və xidməti fəaliyyətlərə cəlbi və həmin proseslərdə rolu" mövzusunda panel müzakirədə iştirak ediblər.

Forumun yekununda isə respublikada fəaliyyət göstərən TGT-lər fəaliyyətlərinə görə mükafatlandırılıb. `

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə Gənclər Təşkilatı "İlin Tələbə Gənclər Təşkilatı" adına layiq görülüb.

AzMİU-da Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən Gənc Rəssamlar Klubu Respublika forumunda "İlin Tələbə Klubu" nominasiyasını alıb.

Daha sonra AZMUN proqramı çərçivəsində fəaliyyət göstərən BMT modeli klubların fərqlənməsi zamanı AzMİU Tələbə Gənclər Təşkilatı nəzdində fəaliyyət göstərən BMT modeli klubu "İlin BMT modeli klubu" seçilib.

**Nuray Cəfərzadə.**

# Tahir Musa oğlu Pənahov



**Azərbaycan Memarlıq və İnşaat Universiteti Fizika və Kimya kafedrasının məsləhətçi professoru, tanınmış alim, fizika-riyaziyyat elmləri doktoru Tahir Pənahov 2024-cü il fevralın 28-də 88 yaşında vəfat etmişdir.**

**O, 1936-cı ildə Qərbi Azərbaycanın Kalinino rayonunun Soyuqbulaq kəndində anadan olmuşdur. Yaşadığı kənddə orta məktəb olmadığından 1955-ci ildə Gürcüstanın Bolnisi rayonunun Faxralı kənd orta məktəbində təhsilini davam etdirmişdir. Həmin məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur.**

**Tahir Pənahov 1960-cı ildə ali məktəbi bitirdikdən sonra təyinatla Azərbaycan Politexnik İnstitutunun Fizika kafedrasına göndərilmişdir. 1962-ci ildə AMEA-nın Fizika İnstitutunun aspiranturasına qəbul olmuş, sonra M.V. Lomonosov adına Moskva Dövlət Universitetinə göndərilmişdir.**

**1966-cı ildə o, namizədlik, 1988-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1989-cu ildə professor elmi adını almışdır.**

**Tahir Pənahov 1975-ci ilin sentyabrından Azərbaycan Memarlıq və İnşaat Universitetinin Fizika kafedrasında çalışırdı. Universitetdə çalışdığı illərdə onun "Metallar fizikası" sahəsində bir çox alimin yetişməsində böyük rolu olmuşdur. Təsadüfi deyil ki, 1991-ci ildə "Metallar fizikası" istiqaməti üzrə mütəxəssis hazırlamaq üçün yeni ixtisas məhz Tahir Pənahovun təşəbbüsü ilə açılmışdır.**

**Professor Tahir Pənahov 2004-cü ildən 2019-cu ilədək universitetimizin Fizika kafedrasının müdiri vəzifəsində işləmişdir. Ötən bu müddət ərzində o, kafedranın tədris proqramlarının hazırlanmasında, yeni laboratoriyaların açılmasında, dərslik və dərs vəsaitlərinin hazırlanmasında mühüm işlər görmüşdür. Tahir müəllim kafedra müdiri işlədiyi illərdə istehsalatla bağlı 18 elmi-tədqiqat işi tövsiyə etmişdir. O, metal və ərintilər fizikası sahəsində yeni istiqamət yaratmış alimlərdən biri idi. Universitetimizdə Metal və Ərintilər Fizikasının müasir problemlərinə həsr olunmuş 4 yerli və Beynəlxalq elmi konfransların keçirilməsinin təşəbbüskarı və təşkilatçısı olmuşdur.**

**Tahir Pənahov 20-dən çox patent və ixtiranın, 360-dan çox elmi məqalənin, 15 monoqrafiyanın, bir çox dərslik və dərs vəsaitinin müəllifidir.**

**Onun həssas ürəyi, geniş qəlbi vardı. Köməyini heç kəsdən əsirgəməzdi. Universitet rəhbərliyindən tutmuş sıravi işçiyədək hamı onun xətrini əziz tutardı. Bir neçə nəslin müəllimi olmuş Tahir Pənahov həqiqətən də sanballı alim, gözəl müəllim, nurlu ziyalı, xeyirxah insan idi.**

**– Allah Sizə rəhmət eləsin, ruhunuz şad, məkanınız cənnət olsun, Tahir müəllim! Sizin əziz xatirəniz həmişə bu kollektivin qəlbində yaşayacaqdır!**

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları.**

# Asiman Əlizadə AzMİU və İTU arasındakı ikili diplom proqramının ilk məzunu olub



Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə Türkiyənin İstanbul Texnik Universitetinin (İTU) ikili diplom proqramının tələbəsi Asiman Əlizadə bu proqram üzrə ilk məzun olub.

Asiman Əlizadə 2019-cu ildə AzMİU və İTU arasında həyata keçirilən ikili diplom proqramı üzrə İnşaat fakültəsinin inşaat mühəndisliyi ixtisasına daxil olub. Asiman Əlizadə ilk 2 ili AzMİU-da təhsil alıb, sonra təhsilini İTU-da davam etdirib. Beləliklə, təhsilini uğurla başa vuran Asiman Əlizadə proqramın ilk məzunu adını qazanıb.

AzMİU və İTU arasında 2018-ci ildə imzalanan ikili diplom müqaviləsi əsasında bakalavriat səviyyəsində inşaat mühəndisliyi ixtisası üzrə tədris aparılır. Proqramın təhsil müddəti 4 il, tədris dili ingilis dilidir. Həm Azərbaycandan, həm də Türkiyədən olan tələbələr 2 il AzMİU-da, 2 il isə İTU-da təhsil alırlar. İxtisas üzrə normativlərdən əlavə tələbələr hər iki universitetin qəbul etdiyi beynəlxalq testlərdən birinin (TOEFL IBT: minimum 72/120, İTU – AzMİU xarici dil bilmə imtahanı: minimum 60/100) balını toplayaraq ingilis dili səviyyələrini təsdiq edir. Proqramı müvəffəqiyyətlə başa vuran tələbələrə AzMİU və İTU-nun diplomları təqdim olunur.

AzMİU və İTU arasında həyata keçirilən bu proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, peşəkar inkişafına şərait yaradan zəngin tədris planı təqdim etməkdir. Hazırda ikili diplom proqramı üzrə 12 azərbaycanlı və 5 türk tələbə İTU-da; 36 azərbaycanlı və 3 türk tələbə AzMİU-da təhsillərini davam etdirirlər.

Qeyd edək ki, AzMİU bakalavriat səviyyəsi üzrə Türkiyənin İstanbul Texniki Universiteti ilə yanaşı, İtaliyanın Milan Politexnik Universiteti, Parisin CNAM Universiteti, magistratura səviyyəsi üzrə isə İspaniyanın Coruna Universiteti, İtaliyanın Milan Politexnik Universiteti və Portuqaliyanın Leiria Politexnik İnstitutu ilə ikili diplom proqramları həyata keçirir. Böyük Britaniyanın Vestminster Universiteti (memarlıq abidələrinin bərpası və yenidən qurulması ixtisasında) və Türkiyənin Ankara Universiteti (elektrik və elektronika mühəndisliyi) ilə imzalanan ikili diplom proqramı üzrə bu ildən etibarən tələbə qəbulu həyata keçirəcək.

**PR və Media.**

**Xocalı faciəsi tələbələrin gözü ilə**

# Rəsm və plakat işlərində faciənin dəhşəti boyalarla əks olunub

Azərbaycan Memarlıq və İnşaat Universitetində Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Xocalı faciəsi tələbələrin gözü ilə" adlı sərgi açılıb.

AzMİU-nun Tarixi Muzeyi, Azad Həmkarlar İttifaqı Komitəsi və Təsviri incəsənət kafedrasının birgə təşkilatçılığı ilə gerçəkləşən sərgidə Xocalı faciəsini əks etdirən 50 rəsm və plakat işi nümayiş olunub.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Universitetin tədris işləri üzrə prorektoru professor Akif Qasımov XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımını, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə siyasəti tariximizin ən qanlı səhifəsi kimi xarakterizə edib. O, belə faciələrlə bağlı tarixi faktların gənc nəsillər tərəfindən unudulmamasını tövsiyə edib.

Həmçinin çıxışlarda Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklərdən bəhs olunub. Qeyd edilib ki, erməni qəsbkarları 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc əhalisinə, xüsusən uşaqlara, qadınlara, qocalara qarşı qətliam törədiblər. Bunları əks etdirən foto və video kadrlar həmin hadisənin dəhşətini bir daha göz önünə gətirir. Vurğulanıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Böyük Zəfər Xocalı soyqırımı qurbanlarının, eləcə də digər şəhidlərimizin qanını yerdə qoymadı, hətta onların narahat ruhunu şad etdi.

Sərgidə bildirilib ki, bu dəhşətli faciədə baş verənlər müxtəlif kurslarda təhsil alan tələbələrin gözü ilə təqdim olunub. Rəsm və plakat işlərində Xocalı faciəsi qurbanlarının həyat hekayələri, taleyi və yaşadıqları anlar karandaş və rəngli boya ilə ifadə edilib.

**"İnşaatçı kadrlar".**

**Təsisçi:**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

**Redaktor:**
**Akif HACIYEV**

**Qeydiyyat № 316**
**Qəzet 1983-cü ildən çıxır**

**Ünvanımız:**
**Az1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11**



**E-mail:**
**pr.media@azmiu.edu.az**
**redaksiya@inbox.ru**

**Telefon: 539-07-28**
**daxili 5-43, 6-08**

**Qəzet "Azərbaycan Nəşriyyatı" MMC-də ofset üsulu ilə çap olunmuşdur.**
**Tiraj 300**
**Sifariş 498**